***Tarix fakültəsi - 105***

**UOT 94(479.24)**

**CƏFƏR CƏFƏROV**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru,*
*tarix elmləri doktoru, professor*
**jafar.m.jafarov@icloud.com**
**office@adpu.edu.az**

# TARİX YAZAN TARİX FAKÜLTƏSİ

DOI: https://doi.org/10.36719/2708-065X/106/54-58

*Azərbaycanda ali təhsilin təşkili və inkişafı tarixi bilavasitə Bakı Dövlət Universitetinin yaranması tarixi ilə başlanır. Bakı Dövlət Universitetinin təsis edilməsi ilə yaradılan Tarix fakültəsinin fəaliyyətə başlaması Azərbaycanda tarix elminin tədrisinin və tədqiqinin əsasını qoyur. Fakültənin strukturunda kafedralar mühüm əhəmiyyətə malikdir. Ümumi tarix, Arxeologiya, Asiya və Afrika ölkələri tarixi, Türk xalqları tarixi, Qədim dünya tarixi və Orta əsrlər tarixi kafedraları və digər kafedralar fakültədə tarixin tədrisini həyata keçirən əsas kafedralar olmuşlar. Azərbaycan tarix elmi inkişaf etdikcə və tarixin tədrisi məqsədilə yeni tədris planları hazırlandıqca zamana uyğun olaraq yeni kafedralar yaradılmışdır. Fakültənin yarandığı dövrü, sovet dövrünü və müstəqillik dövrünü müqayisə etdikdə strukturda ciddi dəyişikliklərin baş verdiyi məlum olur. Tarix fakültəsinin strukturunun təşkilinə dövrün tələbləri, tarixçi ixtisası üzrə kadr hazırlığı üçün vacib olan bilik və bacarıqlar, tarix elminin mühüm nailiyyətləri ciddi təsir etmişdir. Tarix fakültəsində hər zaman tədris fəaliyyəti və elmi tədqiqatlar paralel aparılmışdır. Bu tədqiqatlar heç vaxt Universitet divarları arasında qalmamış, hətta Azərbaycandan kənarda da yayılmış, elmi əlaqələr qurulmuşdur. Fakültədə bir çox dünya şöhrətli alimlər çalışmış və ya burada tədqiqat aparmış; dünyanın bir sıra elm və təhsil mərkəzləri ilə əlaqələr yaradılmışdır.*

*Açar sözlər:* Bakı Dövlət Universiteti, Tarix fakültəsi, Azərbaycan təhsili.

***Giriş.*** Bu günlərdə Azərbaycan elm və təhsil tarixində müstəsna rol oynayan, ölkəmizin ilk ali təhsil ocağı olan Bakı Dövlət Universitetinin yaranmasından 105 il keçir. Bu qocaman və flaqman ali təhsil ocağı fədakar Azərbaycan ziyalılarının milli maarifçilik hərəkatının təntənəsi olaraq, uzun sürən mübarizə və mürəkkəb proseslərdən sonra 1919-cu ilin 1 sentyabr tarixində Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinin qərarı ilə təsis edilib.

Ölkəmizdə müasir ali təhsil ənənələrinin təməlini qoymaqla Bakı Dövlət Universiteti fəaliyyət göstərdiyi bir əsrdən artıq müddət ərzində Azərbaycanın ictimai-mədəni həyatında müstəsna rol oyanmış yüzlərlə görkəmli alim və ziyalı yetişdirmiş, belə demək mümkündürsə, cəmiyyətimizin intellektual inkişafının hərəkətverici lokamativi rolunda çıxış etmişdir.

Universitet yaradılandan bəri tarix-filologiya adı altında fəaliyyət göstərən ilk fakültələrdən biri olan indiki Tarix fakültəsi də bu uzun və şərəfli yolda özünəməxsus rol oynayır. Bu gün BDU ilə yanaşı 105 illiyini qeyd edən Tarix fakültəsi haqqında geniş danışmazdan əvvəl qeyd etməliyəm ki, mən özüm də məhz bu qocaman fakültənin yetirmələrindənəm. Belə ki, 1977-ci ildə orta məktəbi bitirdikdən sonra o zamankı Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Tarix fakültəsinə qəbul olunmuşam. 1980-1983-cü illərdə isə universitetin göndərişi əsasında təhsilimi Moskva Dövlət Universitetinin

(MDU) Tarix fakültəsində davam etdirmişəm. 1983-cü ildə Moskva Dövlət Universitetinin Tarix fakültəsinin aspiranturasına daxil olub, 1987-ci ildə dissertasiya işini müdafiə edərək tarix elmləri namizədi *(tarix üzrə fəlsəfə doktoru)* elmi dərəcəsi aldım.

Ölkəmizə qayıtdıqdan sonra məhz doğma Tarix fakültəsində elmi-pedaqoji fəaliyyətə başladım. 1987-1994-cü illərdə Azərbaycan Dövlət Universitetinin (1989-cu ildən BDU) Tarix fakültəsində böyük laborant, Azərbaycan tarixi kafedrasında müəllim, baş müəllim, dosent vəzifələrində çalışmış, 1990-1994-cü illərdə BDU-da Tarix üzrə İxtisaslaşmış Dissertasiya Şurasının elmi katibi olmuşam. Eyni zamanda, 1992-1994-cü illərdə Tarix fakültəsinin dekan müavini kimi fəaliyyət göstərmək də nəsibimə yazılıb.

***Tarix fakültəsinin təşkili tarixi.*** İndi isə ölkəmizin ictimai-siyasi həyatında BDU-nun özü qədər əhəmiyyətli rolu və xidmətləri olan Tarix fakültəsinin fəaliyyətinə daha geniş aspektdə baxaq. 1919-cu ilin 1 sentyabrında təsis edilən, həmin ilin noyabrın 15-də Tarix-filologiya fakültəsi adı ilə elm və təhsil yoluna başlayan Tarix fakültəsi sonralar İctimai elmlər fakültəsi, və Pedaqoji fakültə adları altında fəaliyyətini davam etdirərək, nəhayət 1934-cü ildə BDU yenidən təşkil olunanda müstəqil fakültəyə çevirilib və fəaliyyətini daha sistemli şəkildə davam etdirməyə başlayıb.

1920-1922-ci illərdə Azərbaycan SSR xalq maarif komissarı olan Dadaş Bünyadzadə bu dövrdə Universitetin əsas vəzifələrinin siyasi dəyərlərə yönəldiyini irəli sürürdü: - *...türkləşmə, proletarlaşma, sosialist quruculuğunun praktik tapşırıqlarına bilavasitə uyğunlaşdırılmasına yönəldilən fakültələrin məqsədlərinin dəyişdirilməsi, tələbələrin marksist və leninçi dünyagörüşü əsaslarına uyğun sosial-siyasi tərbiyələn dirilməsi vəzifəsi və nəhayət, universitetin mədəni inqilab mərkəzinə çevrilməsi vəzifəsi ...* [3, 77].

Təsis olunarkən 509 tələbə və 95 azad dinləyici ilə fəaliyyətə başlayan Tarix fakültəsi 105 il ərzində minlərlə yüksək ixtisaslı kadrlar hazırlayıb. Bu gün fakültədə bakalavriatura üzrə əyani formada 1889, qiyabi formada isə 73 nəfər, eyni zamanda magistratura üzrə 157, doktorantura üzrə isə 60 nəfər təhsil alır. Ümumilikdə, fakültədə təhsil alanların sayı 2200 nəfərdən çoxdur [11].

Tarix fakültəsi fəaliyyətə başladığı ilk vaxtlarda burada dünya şöhrətli görkəmli alimlər – akademiklər V.V.Bartold, N.Y.Maar, A.Y.Krımski, Ə.Qubaydullin, B.V.Çobanzadə, İ.M.Cəfərzadə və başqaları çalışmış və tələbələrə dərs demişlər.

1919-cu ildən başlayaraq XX əsrin 40-cı illərinin sonlarına qədər Tarix fakültəsinə Nikolay Aleksandroviç Dubrovski (fakültənin ilk dekanı), Leonid Aleksandroviç İşkov, Aleksandr Vasilyeviç Baqri, Tağı Abbas oğlu Şahbazi, Pyotr Petroviç Fridolin, Boris Nikolayeviç Tixomirov kimi görkəmli elm xadimləri rəhbərlik ediblər.

BDU-nun Tarix fakültəsində ilk əhəmiyyətli struktur dəyişikliyi 1941-ci ildə baş verib. Belə ki, bu ildə fakültədə Azərbaycan tarixi kafedrası fəaliyyətə başlayıb. XX əsrin 70-80-ci illərində isə Tarix fakültəsinin inkişafında yeni mərhələ başlayıb: yeni kafedralar və elmi-tədqiqat laboratoriyaları yaradılıb. Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra isə yeni dövrün tələblərinə müvafiq olaraq Tarix fakültəsinin də strukturu və fəaliyyətində ciddi dəyişikliklər olub, müəyyən islahatlar həyata keçirilib.

Əgər 1919-1920-ci illərdə BDU-nun Tarix fakültəsində 13 professor, 5 dosent, 6 müəllim fəaliyyət göstərirdisə, bu gün fakültədə 20 professor, 49 dosent, 10 baş müəllim, 5 müəllim elmi-pedaqoji fəaliyyətlə məşğul olur, eyni zamanda müxtəlif kafedraların nəzdində fəaliyyət göstərən Azərbaycanın maddi mədəniyyət tarixi və Dünya azərbaycanlıları: tarixi demoqrafiya elmi-tədqiqat laboratoriyaları və Tarix, Dil və Metodika Mərkəzində müasir tədqiqatlar aparılır.

Xüsusilə vurğulamaq lazımdır ki, Bakı Dövlət Universitetinin Tarix fakültəsi olduqca şərəfli tarixi inkişaf yolu keçərək fəaliyyətdə olduğu əsrdən artıq müddətdə Azərbaycan tarix elminin, ümumilikdə milli ideologiya və milli mənlik şüurumuzun formalaşması və inkişaf etdirilməsində müstəsna rol oynayıb, milli mədəniyyətimizin inkişafı və milli-mənəvi ənənələrimizin qorunub saxlanmasına, gənc nəsillərin vətənpərvərlik ruhunun yüksəldilməsinə güclü təkan verib, peşəkar tarixçi mütəxəssislər hazırlayan elmi mərkəzə çevrilib.

Azərbaycanımızın minlərlə görkəmli dövlət və siyasi-ictimai xadimi məhz BDU-nun Tarix fakültəsinin yetrmələri – məzunlarıdırlar. Heç təsadüfi deyil ki, dünya şöhrətli ictimai-siyasi xadim, dahi şəxsiyyət, müstəqil Azərbaycanın qurucusu olan Ümummilli Lider Heydər Əliyev də BDU-nun Tarix

fakültəsinin məzunudur [6, s. 167]. Ulu Öndər Heydər Əliyev öz çıxışlarında BDU-nun məzunu olmağı ilə fəxr etdiyini dəfələrlə bildirmişdir: "Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam". Həmçinin universiteti *"Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvəti, milli iftixarı"* adlandırmışdır. Qeyd etmək lazımdır ki, Heydər Əliyevin Tarix fakültəsinə və elminə münasibəti xüsusi olmuşdur. 1994-cü ildə Bakı Dövlət Universitetinin 75 illik yubiley mərasi mindəki çıxışında o Tarix fakültəsinin də adını vurğulayaraq onun ölkəmizdə elmin inkişafında müstəsna rolundan danışmışdır [8].

Yarandığı ilk gündən bu günədək uzun və çətin bir yol keçmiş, yüz il ərzində bir neçə dəfə adı dəyişilən Tarix fakültəsi Azərbaycanda nəinki tarix elminin inkişafına güclü təkan vermiş, eyni zamanda ictimai-siyasi ideologiyanın formalaşdırılması prosesində fəal iştirak etmişdir [7, 380]. 2008-ci ilin 15 sentyabrında Bakı Dövlət Universitetində olan Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komanda cənab İlham Əliyev Tarix fakültəsini də ziyarət edib. Prezidentin Tarix fakültəsinin də yerləşdiyi yeni tədris korpusunun açılışında iştirak etməsi, burada xalqımızın Ulu Öndəri, müasir Azərbaycan dövlətçiliyinin banisi, BDU-nun dünya şöhrətli məzunu Heydər Əliyevə həsr olunan stendlə, o cümlədən fakültənin kafedraları və auditoriyaları, akt zalı ilə tanış olması dövlət başçısının Bakı Dövlət Universiteti və onunla həmyaşıd olan Tarix fakültəsinə verdiyi xüsusi önəm və qayğının təzahürü hesab oluna bilər. Ümumən Tarix fakültəsində müasir Azərbaycan dövlətçiliyində və 44 günlük Vətən müharibəsində əldə etdiyimiz tarixi Zəfərin qazanılmasına dahi şəxsiyyət Heydər Əliyevin və onun siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyevin tarixi rolunun, liderlik nümunəsinin dərindən araşdırılması və tədrisə tətbiqi istiqamətində sistemli fəaliyyət icra olunur.

***Tarix fakültəsinin ölkənin ictima-siyasi və sosial-mədəni həyatında rolu.*** Fakültə ölkəmizin ictimai-siyasi və sosial-mədəni həyatında, dövlət quruculuğu və dövlət idarəetmə strukturlarında, elm və təhsil sistemində çalışan minlərlə yüksək ixtisaslı kadrların hazırlanmasında mühüm rol oynayıb və bu töhfəsini bu gün də əzmlə davam etdirir. Tarix fakültəsi digər tərəfdən ölkəmizin yaşı min illərlə ölçülən olduqca zəngin tarixi və mədəni irsinin, əsrlərlə formalaşmış milli dəyərlərimizin tədqiqi və araşdırılmasında əhəmiyyətli rol oynayır. Deyə bilərəm ki, fakültədə çağdaş dövrümüzün tələblərinə uyğun şəkildə tədrisin təşkili və təlim prosesində innovativ yanaşmalara, müasir və qabaqcıl təcrübələrin tətbiqinə xüsusi önəm verilir. Xüsusilə, digər yerli və beynəlxalq elmi və tədqiqat qurumları ilə yanaşı fakültənin Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya fakültəsi, xüsusən burada fəaliyyət göstərən Azərbaycan tarixi və Ümumi tarix və tarixin tədrisi texnologiyası kafedraları ilə məhsuldar elmi-pedaqoji əməkdaşlıq məmnunluq doğurur.

Bu gün BDU-nun Tarix fakültəsində ali təhsilin hər üç səviyyəsi – bakalavriat, magistratura və doktorantura səviyyələri üzrə tarix, tarixşünaslıq və mənbəşünaslıq, etnoqrafiya, antropologiya, regionşünaslıq və vətən tarixi kimi ixtisas sahələri üzrə ümumilikdə 40-dək ixtisas və ixtisaslaşmalar üzrə peşəkar tarixçi-tədqiqatçı mütəxəssislərin hazırlanması, eləcə də müvafiq ixtisaslar üzrə Dissertasiya Şurasının fəaliyyət göstərməsi, fakültənin bir çox yerli və beynəlxalq elmi-tədqiqat qurumları ilə səmərəli qarşılıqlı əlaqələri burada gedən inkişafın bariz nümunəsidir.

Son illərdə fakültənin alimlərinin əsərlərinin xarici nüfuzlu jurnallarda, o cümlədən "Scopus" bazasında indekslənmiş jurnallarda dərc olunması olduqca sevindirici haldır.

Hazırda fakültənin tərkibində fəaliyyət göstərən Azərbaycan tarixi (humanitar fakültələr üzrə), Azərbaycan tarixi (təbiət fakültələri üzrə), Arxeologiya və etnoqrafiya, Asiya və Afrika ölkələri tarixi, Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi, Qədim dünya və orta əsrlər tarixi, Mənbəşünaslıq, tarixşünaslıq və metodika, Slavyan ölkələri tarixi, Türk xalqları tarixi və Qafqaz xalqları tarixi kafedralarında müvafiq sahələr üzrə tədqiqatların aparılması və tədris prosesinin yüksək səviyyədə qurulması istiqamətində aparılan ardıcıl işlər olduqca diqqətəlayiqdir. Xüsusən, son illər fakültədə yeni ixtisasların və müxtəlif xarici universitetlərlə ikili diplom proqramlarının yaradılması isitqamətində görülən işləri qeyd etmək lazımdır.

***Nəticə.*** Müasir dövrdə, tarixi Zəfərin yaratdığı yeni tarixi reallıqları və ölkəmizin dünya miqyasında əldə etdiyi haqlı mövqeyini nəzərə alaraq, sovetlər dönəmində uzun illər ərzində Azərbaycan tarixi və tarixşünaslığında edilən saysız təhriflərin aradan qaldırılması, milli tariximizin tam obyektiv şəkildə yenidən işlənilməsi prosesində müvafiq qurumlarla yanaşı, eyni zamanda universitetlərin tarix

fakültələrinin də üzərinə böyük vəzifələr düşür. İnanıram ki, BDU-nun Tarix fakültəsi də bu istiqamətdə milli tarix elmimizə böyük töhfələr verəcək, bundan sonra da yeni nəsil tarixçilərin yetişdirilməsində müstəsna xidmətlər göstərəcəkdir.

Bir daha Azərbaycan ali təhsil tarixində özünəməxsus yeri olan, bir əsrdən çoxdur ölkəmizə və dünyaya ziya işığı saçan Bakı Dövlət Universitetini və onun Tarix fakültəsini 105 illik yubiley münasibəti ilə təbrik edir, universitetə və fakültəyə davamlı uğurlar arzulayıram.

ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar). II cild. Bakı, “Azərbaycan” nəşriyyatı, 1998. - 992 s.
2. Bakı Dövlət Darülfununun təsisi (sənədlər toplusu). Bakı, Azərbaycan Universiteti nəşriyyatı, 1989. – 89 s.
3. Razumovski V.İ., Makovelski A.O.. Bakı şəhərində universitetin yaradılması. Bakı, Nurlar Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2014, 112 s.
4. Hacıyev S.T., Süleymanov R.C. Tarix fakültəsinin tarixi. 1919-2009. Bakı, Nurlar nəşriyyatı, 2010, 272 s.
5. Aslan Atakişiyev. M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin tarixi. İki hissədə. I hissə. Bakı, Bakı Universitetinin nəşriyyatı, 1991, 528 s.
6. Hüseynova İ.M. Tarix. Zaman. Düşüncələr. Çoxcildli əsər. I cild. Bakı, Elm və təhsil‖, 2016, 512s.
7. Məhərrəmov A. Bakı Dövlət Universiteti 95. Bakı, Bakı Universiteti nəşriyyatı, 2014, 576 s.
8. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Məmməd Əmin Rəsulzadə adına Bakı Dövlət Universitetinin 75 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə nitqi. Respublika Sarayı, 26 noyabr 1994-cü il. - http://lib.aliyev-heritage.org/print.php?lang=az&page=3631526 [10.10.2024].
9. Tarix fakültəsi üzrə ixtisaslar / Bakı Dövlət Universitetinin rəsmi səhifəsi. - http://bsu.edu.az/az/content/tarix_fakltsi_zr_ixtisaslar [10.10.2024].
10. Bakı Dövlət Universitetinin rəsmi səhifəsi.- http://bsu.edu.az/az/content/tarix_cdvl [10.10.2024].
11. BDU-105: Zəngin ənənələri olan Tarix fakültəsi / AzərTac, 23.08.2024. - https://azertag.az/xeber/bdu___105_zengin_eneneleri_olan_tarix_fakultesi-3147438 [10.10.2024].

**ДЖАФАР ДЖАФАРОВ**
*Ректор Азербайджанского Государственного Педагогического Университета,*
*доктор исторических наук, профессор*

## ИСТОРИЧЕСКИЙ ФАКУЛЬТЕТ, КОТОРЫЙ ПИШЕТ ИСТОРИЮ

История организации и развития высшего образования в Азербайджане начинается непосредственно с основания Бакинского государственного университета. Исторический факультет, созданный при создании Бакинского государственного университета, закладывает основу преподавания и исследования истории в Азербайджане. Кафедры играют важную роль в структуре факультета. Основными кафедрами, преподававшими историю на факультете, были кафедры «Всеобщая история», «Археология», «История стран Азии и Африки», «История тюркских народов», «История древнего мира» и «История средних веков» и другие. По мере развития исторической науки в Азербайджане и подготовки новых учебных программ для преподавания истории в соответствии со временем создавались новые кафедры. При сравнении эпохи создания факультета, советского периода и периода независимости известно, что в структуре произошли серьезные изменения. На организацию структуры исторического факультета сильное влияние оказали требования времени, знания и умения, важные для подготовки кадров в области истории, а также важные достижения исторической науки. Преподавательская деятельность и научные исследования на историческом факультете всегда осуществлялись параллельно. Эти исследования так и не остались в стенах университета, они распространились даже за пределы

Азербайджана, были установлены научные связи. На факультете работали или проводили исследования многие ученые с мировым именем; установлены связи с рядом научных и образовательных центров мира.

*Ключевые слова*: Бакинский Государственный Университет, Исторический факультет, Азербайджанское образование.

**JAFAR JAFAROV**
*ASPU rector, Doctor of Historical Sciences, professor*

## FACULTY OF HISTORY WHO WROTE THE HISTORY

The history of the organization and development of higher education in Azerbaijan begins with the establishment of Baku State University. The establishment of the Faculty of History and Philology, established with the establishment of Baku State University, lays the foundation for the teaching and research of historical science in Azerbaijan. Comparing the period of the faculty's establishment, the Soviet period and the period of independence, it is clear that significant changes have taken place in the structure. The requirements of the time, the knowledge and skills necessary for the training of historians, the important achievements of historical science had a serious impact on the organization of the structure of the Faculty of History. Chairs are important in the structure of the faculty. The departments of General History, Archeology, countries of Asia and Africa, History of Turkic Peoples, Department of Ancient World History and Medieval History and other departments were the main departments teaching history at the faculty. As Azerbaijan's history developed scientifically and new curricula were developed for the purpose of teaching history, new departments were established in accordance with the time.

*Keywords:* Baku State University, Faculty of History, Azerbaijan education.

*Məqalənin çapa qəbul olunma tarixi: 15 oktyabr 2024-cü il.*
*Məqalə Redaksiya heyətinin qərarı ilə nəşr edilib.*